**UOT 792**
**https://doi.org/10.59849/2311-8482.2024.1.283**

**RAMAL İBRAHİMOV***

# MOBİL JURNALİSTİKANIN ƏNƏNƏVİ MEDİA FƏALİYYƏTİNƏ TƏSİR İMKANLARI

*Jurnalistikada onlayn medianın əhatə dairəsinin artması medianı ənənəvi xəbər toplama və nəşr üsullarını rəqəmsal dövrə uyğunlaşdırmağa məcbur etdi. Texnologiyanın sürətli təkamülü və nəticədə, onlayn nəşrə keçid mobil jurnalistikanın yüksəlişinə səbəb oldu. Yarmarkalardan siyasi məzmunlu materialların hazırlanmasına qədər bütün növ media məhsullarının hazırlanmasında mobil jurnalistikanın effektivliyi, əlverişliliyi nəzərə çarpır. Yəni, mobil jurnalistika təqdim etdiyi funksionallıq sayəsində kütləvi informasiya vasitələrində informasiyanın əldə edilməsi, emalı və ötürülməsini həm sürətləndirir, həm də asanlaşdırır. Məqalədə də mobil jurnalistikanın müxtəlif növ resurslara malik media qurumlarında effektivliyi, işləri optimallaşdırma səviyyəsi praktik nümunələrlə izah edilir. Böyük Britaniyanın təcrübəsindən Folklend adalarına, Qazaxıstana qədər mobil jurnalistikanın istifadə imkanlarına toxunulur. Mobil jurnalistikanın ənənəvi medianı sıradan çıxarmadığı, əksinə, onun müasir dövrə uyğunlaşdırdığını üzə çıxarır. Bir sözlə, dövrümüzün mediası rəqəmsallığa meyil etməli, informasiya müharibəsində əsas faktor olan sürətlilik prinsipinə yönəlməlidir. Kütləvi informasiya vasitələrinin fəaliyyətində bunu təmin etmək üçün mobil jurnalistika imkanlarından yararlanmaq dövrün tələbinə ən uyğun həlldir.*

***Açar sözlər:*** *Mobil jurnalistika, media, effektivlik, rəqəmsallıq*

## Giriş

Müasir dövrümüz texnoloji inkişafa əsaslandığı üçün müxtəlif sahələrin də texnologiyaya inteqrasiyası zəruridir. Tərəqqiyə gedən yol məhz müasir tələblərə cavab verən sistem və ya mexanizmlərin yaradılmasından keçir. Mediada da müasir trendlərə adaptasiyanın kökündə rəqəmsallığa meyil dayanır. İnformasiya savaşının kəskinləşdiyi bir dövrdə kütləvi informasiya vasitələrinin xəbərləri ötürmək üçün vaxtları ötən əsrdəki kimi deyil. Artıq hadisə baş verdiyi anda reaksiya vermək və hadisə yerindən ən son məlumatları sürətli şəkildə tamaşaçıya çatdırmaq lazımdır. Bununla yanaşı, televiziya kameralarının, jurnalistlərin diqqət çəkəcəyi münaqişə zonalarından da informasiya axınını təmin etmək medianın əsas öhdəliklərindən biridir. Bunların da icrasını ənənəvi medianın imkanları tam şəkildə təmin edə bilmir. Bu səbəbdən də, mobil jurnalistika ənənəvi medianın əsas yardımçısına çevrilərək informasiyanın sürətli şəkildə əldə edilməsi və çətin şəraitlərdə belə yayımın reallaşdırılmasını təmin edir. Bu da televiziyaların, saytların yaradıcı, rəngarəng və operativ məzmunu auditoriyaya təqdim etməsinə səbəb olur. Bir sözlə, mobil jurnalistikanın effektivliyi ənənəvi medianı ayaqda saxlayır, onun rəqabət qabiliyyətini artırır.

## Mobil jurnalistikanın media işindəki effektivliyi

Mediada “mojo” deyə tanınan və anılan sahə reportyorların mobil və muxtar şəkildə fəaliyyət göstərməsini şərtləndirir. Bu baxımdan, mobil cihazların fuksionallığı xüsusilə qeyd edilməlidir. Hazırda, görüntünü qeydə almağa, redaktə etməyə və materialları yayımlamağa imkan verən smartfonlar həyatımızın ayrılmaz parçası olduğu kimi jurnalistlərin də əvəzolunmaz silahına çevrilib. Bu fürsəti görən BBC **PNG (Portable News Gathering)** adlı proqram hazırlayaraq əməkdaşlarının istifadəsinə vermişdi. Beləcə, jurnalistlər video, audio və fotoları birbaşa xəbər otağının istehsal sistemlərinə yazmaq, redaktə etmək və göndərmək imkanı əldə etdilər. Media qurumunun təlimçisi Mark Settl (Marc Settle) “mojo”nun artan şöhrəti və effektivliyini belə şərh edirdi: *“Mobil jurnalistika son onilliklər ərzində xəbərlərdə ən böyük inqilabdır və hamının bu işə atılma vaxtıdır”* (1).

Mediadakı informasiya savaşının qalib tərəfi olmaq və informasiyanı auditoriyaya bütün rəqiblərindən əvvəl çatdırmaq iddiası yayımçılar üçün əsas öhdəlikdir. Məhz bu məsuliyyətin də yerinə yetirilməsi baxımından, mobil jurnalistikanın imkanlarını xüsusi qeyd etmək lazımdır.

Bütün materialları çəkmək, redaktə etmək və yayımlamaq imkanın bir cihazda birləşməsi prosesin sürətləməsinə təkan verir. Yəni, bu əlçatanlıq görüntüləri yaymaq üçün lazım olan vaxtı aradan qaldırır, dərc prosesini sürətləndirir. Jurnalist Pipo Serrano bir nəfərdən müsahibə alarkən və ya kiminsə açıqlamasını tez əldə edib yayımlamaq lazım gəldikdə mobil jurnalistin xidmətindən yararlanmağı üstün sayır:"*Yalnız bir nəfərdən müsahibə alanda və ya kiminsə qısa açıqlaması lazım olduqda, mənə operator və jurnalistlə ekipaj göndərməyə ehtiyac yoxdur. Bir jurnalistin mojo dəsti ilə kifayətdir"* (2).

Sürətlilikdən danışdıqda, bunu ancaq texnoloji imkanlarla əlaqələndirmək doğru deyil. Mobil cihazların yaddaş məhdudiyyəti, enerji saxlama imkanı və yaxınlaşdırma miqyası (zoom) mobil jurnalist üçün əsas maneə rolunda çıxış edir. Buna görə də, jurnalist əvvəldən çəkəcəyi şeyləri və emal prosesini düşünməlidir. Bir sözlə, planlı şəkildə çəkiliş meydançasına getməli və fikrini media məhsuluna çevirməlidir. İtaliyalı jurnalist Françesko Faççininin dediyi kimi *"söhbət texnologiyadan getmir. Bu, təfəkkür məsələsidir, çünki fərqli davranmaq lazımdır"*. O deyir ki, bu fərqli üsul daha çevik olmaqdan qaynaqlanır: *"Sən çəkiliş meydanında sürətli olmalısan və materialı sonda redaktə edəndə sürətli olmalısan"* (3).

Sürətlə yanaşı sərfəlilik də mobil jurnalistikanı cəlbedici edən amillərdəndir. Mobil jurnalistika ləvazimatları televiziya texnikasının qiymətindən xeyli azdır və multimedia məhsullarının hazırlanması üçün ideal fürsət hesab edilir. Yəni, jurnalist müxtəlif media qollarına dair materialı sadəcə "mojo" dəsti ilə hazırlaya bilər. Qiyməti 200 ABŞ dollarına bərabər olan telefon, 30 ABŞ dolları dəyərində ştativ və mikrofon dəsti ilə reportyorlar asanlıqla məzmun istehsal edə bilərlər. "Mobil Jurnalistika Təlimatı"nın naşiri Torben Stefanın sözlərinə görə, "mojo" çox ucuz olduğu üçün getdikcə populyarlaşır (4). Bu fikri italiyalı jurnalist Françesko Faççini də dəstəkləyir. Faççini bir neçə aspektin vəhdəti çərçivəsində bildirir ki, "bəzi hallarda [peşəkar] kameraları olan videoqraflara həmişə ehtiyac olacaq".

Onun fikrincə, mobil jurnalistika *"daha çox azadlıq və sürət"* verir, *"daha az xərc tələb edir"*, *"istifadəsi və öyrənilməsi asan"*dır (5). Mobil jurnalistikanın imkan verdiyi geniş əlçatanlığa baxmayaraq, naşirlər onun ani nəşr imkanlarından və aşağı xərclərdən faydalana bilərlər. Mobil jurnalistika ənənəvi naşirlər üçün əvvəlcə çətin başa düşülən və mənimsənilməsi çətin görünə bilər, lakin **KAS Media Proqramı** kimi təşəbbüslər naşirlərə mobil reportajdan necə istifadə etməyi və ondan faydalanmağı öyrədə bilər (6).

Mobil jurnalistikanın ənənəvi mediaya verdiyi daha bir üstünlük onun həcmi ilə bağlıdır. Daşınmasının asanlığı mobil jurnalistlərə fəaliyyət rahatlığı yaradır. Əksər mobil jurnalistlər öz avadanlıqlarını bel çantasına yerləşdirə bilirlər. Telefon üstəgəl yüngül ştativ, mikrofonlar və xarici işıq 3 kq-dan az çəkiyə malik olur. Bu da istənilən yerdə, istənilən vaxt yüksək keyfiyyətli materiallar hazırlamağı asanlaşdırır. Kiçik bir bel çantasına sığan yüngül və yığcam avadanlığın olması bəzi hadisələri daha yaxından işıqlandırmaq üçün böyük üstünlükdür. Əlavə işıqlandırma və səs avadanlıqları olan böyük kameralar bəzi yerlərə daxil olmaq üçün sadəcə çox böyükdür. Konfrans zalında, təyyarədə və ya mağarada olmağınızdan asılı olmayaraq, mobil cihazınızı quraşdırıb baş verənləri auditoriyaya çatdıra və ya izah edə bilərsiniz (7). Digər tərəfdən, səyyar jurnalistlər kiçik avadanlıqları sayəsində diqqətdən asanlıqla yayına bilirlər. Smartfonlar mətbuat kamerası kimi qəbul edilmir, ona görə də standart video jurnalistlərin heç vaxt getməyə cəsarət edə bilməyəcəyi yerlərdə çəkilişlər edə, hekayələr yarada bilərsiniz. Məsələn, Suriyadan reportaj hazırlamaq çox riskli bir işdir. Təhlükəsizliyə görə anonim qalmaq məcburiyyətində qalan Əl-Cəzirə jurnalisti öz smartfonundan istifadə edərək qarışıqlıq içində olan bir ölkənin və davam edən inqilabın qeyri-adi, lakin cəlbedici sənədli filmini çəkdi. Məxfi reportyor sənədli filmdə *"kamera daşımaq riskli olduğu üçün ölkəni gəzərkən cib telefonumu özümlə apardım"* deyir. O əlavə edir ki, iPhone ilə o, maneəsiz şəkildə çəkiliş apara bilib və ənənəvi televizor kamerası ilə mümkün olmayan yerlərə girə bilib (8). Böyük kameralara nisbətən qorxuducu olmayan və gündəlik həyatda sıxlıqla istifadə edilən telefonun müsahibə əsnasında istifadəsi insanlarda yaxınlıq, aşinalıq hissi oyadır. Beləcə, insanlar daha səmimi və daha açıq şəkildə fikirlərini bildirməyə meyilli davranırlar. BBC-nin mobil jurnalisti Duqal Şau, "Röyters"lə əməkdaşlıq etmiş Cef Carvis bu fikri dəfələrlə təsdiqləyiblər. Amma bəzi istisnalar da müşahidə oluna bilər. "Alau.kz" informasiya portalının məzmun meneceri Natalya Luqovskaya xəstəxanada gözlənilən əksi bir hal ilə rastlaşdığını belə dilə gətirir: *"Operatorları getdikcə daha çox başa düşürəm və üzr istəyirəm. Onlarla çəkiliş apararkən deyirsən: "Daha çox, daha yaxşı kadrlar çək" və o da edir. Özünüz gedəndə yalnız öz gücünə güvənirsiniz və çəkilişi necə pozmamaq barədə*

*fikirləşirsiniz. Axı, videoda bir şey səhv olarsa, bu onun öz günahıdır. Məsələn, mən bu yaxınlarda çox faciəvi şəraitdə xəstəxanaya yerləşdirilən bir qız haqqında bir hekayə çəkdim. Otaq reanimasiya şöbəsidir. Videonun kifayət qədər olması üçün orada nə çəkmək lazımdır? Həm də uşağın üzü çərçivəyə girməsin. Ancaq sonda hekayə televiziya xəbərlərinə çəkildi. İnsanlar onları telefonuna çəkən şəxsə şübhə ilə yanaşır. "İnsanlar böyük, "ciddi" kameraları görməyə öyrəşiblər. Ona görə də suallar verirlər: "Operator xəstədir?", "Nə? Məni telefonuna çəkəcəksən?"* (9).

Bu da ondan xəbər verir ki, qərb mediasında mobil cihazlara adaptasiya, mediaya açıqlıq şərqə nisbətən daha yüksək səviyyədədir. Amma bu heç bir halda mobil jurnalist fəaliyyətinə bariyer xarakteri kəsb etmir.

**Mobil jurnalistikanın media fəaliyyətini optimallaşdırması: Folklend Adaları təcrübəsi**

Mobil jurnalistikanın bu qədər sürətlə böyüməsinin səbəblərindən biri onun sərbəst jurnalist, orta istehsal şirkətləri və ya böyük yayım korporasiyaları üçün nəticəyə təsiridir. Bunun parlaq nümunəsi **Folklend Adaları Televiziyası** ola bilər. 2011-ci ildə məhdud büdcə ilə yaradılan kiçik milli yayım mediası müxbirlərə həm TV, həm də sosial media üçün daha səmərəli və sürətli məzmun hazırlamağa imkan verən Mobil avadanlıqlar təqdim edir. Telekanalın stansiya meneceri Paula Fomis (Paula Fowmes) izah edirdi ki, ənənəvi olaraq böyük JVC videokameralarından istifadə etsələr də, işlərinə mobil jurnalistikanın tətbiqi ona və üç tam zamanlı müxbirdən ibarət komandaya daha səmərəli şəkildə daha çox məzmun hazırlamağa imkan verib. Fomis informasiyanı ötürməyin bu nə ilə etməkdən daha vacib olduğunu və mobil cihazların proses anında necə effektiv rolda çıxış etdiyini belə vurğulayır: *"Həmişə insanlar deyəcəklər ki, kameraları qarışdırmamalısan və ya peşəkar şəkildə çəkiliş aparmaq üçün cib telefonundan istifadə etməməlisən. Ancaq hekayəni auditoriyaya çatdırmaq üçün nə etməlisənsə, etməlisən. Yeni qubernatorumuz and içəndə bizə dedilər ki, mərasimdə o qədər adam olacaq ki, kameralar oraya sığmayacaq – ona görə də müxbirim Kris və mən birbaşa "iPhone 7"lərimizlə içəri girdik və hamısını mobil telefonla çəkdik. Kiçik boşluqlara girmək üçün əla idi və insanların keçə biləcəyi ştativləriniz yoxdur, üstəlik, mobil telefonda iki nəfərlə, dərhal iki bucaqlı çəkilişiniz var"* (10).

"Filmic Pro" proqramı, selfi çubuğu, miniatür stolüstü ştativ və ikili yaxa mikrofonundan istifadə edərək jurnalistlər daha kreativ məhsullar yaratdıqlarını müşahidə ediblər. Bunlar jurnalistlərin müntəzəm olaraq dağın zirvəsi kimi qeyri-adi yerlərdə, təyyarədə və ya qızğın qoyun qırxımı yarışlarında çəkilişi və əldə olunan məhsulun emalını asanlaşdırıb. Həmçinin, adanın sərt küləyinə qarşı uzun müddət çöldə qala biləcək və səsyazısının analiz edilə bildiyi, nəzarətdə saxlanılması mümkün olan mojo dəsti ərsəyə gətiriblər. Yəni, mobil jurnalist dəstini adanın təbiətinə uyğunlaşdırıblar. Fomis əllərindəki məhdud imkanları belə təsvir edirdi: *"Biz burada çox kiçik bir büdcə ilə işləyirik. Belə ki, səs akustikası yaratmaq üçün studiyalarda divarların üstünə çəkdiyimiz xalça altlığından, yaşıl ekran üçün qızdırılması 30 dəqiqəyə qədər vaxt aparan işıqlardan istifadə edirik. İşimizə yarayan hər şeyi təmin etmək üçün əlimizdən gələni edirik. 5 funt sterlinq dəyərində olan bir selfi çubuğu motokros turnirləri, açıq hava paradları zamanı dron kimi kadrlar əldə etməyə imkan verdi. Eyni zamanda, çubuq əlçatmaz yerlərdən unikal görüntülər çəkmək üçün də əladır. Bu da ərsəyə gətirdiyimiz materialların kreativ tərkib hissəsi kimi işimizə yarayır"* (11).

Folklend təcrübəsi mobil jurnalistikanın minimum imkanlara sahib olan ərazilərdə də təşəkkül tapa biləcəyinə əyani sübutdur. Bahalı televiziya kameralarının əvəzinə mobil cihazlardan istifadə edən ada jurnalistləri həm yaradıcı materiallar ərsəyə gətirir, həm də mojo dəstini yaşadıqları coğrafi şəraitə uyğunlaşdıra biliblər. Bu da mobil jurnalistikanın minimum imkanlar çərçivəsində effektiv inkişafa nail olmasına unikal nümunə sayıla bilər. Onu da qeyd etmək yerinə düşərdi ki, Folklenddə böyük media qurumlarından daha sürətli şəkildə mobil jurnalistikaya inteqrasiya adada medianın yüksək inkişafa çatmasına əsaslanmırdı. Sadəcə olaraq, adada məhdud imkanlara sahib olan jurnalistlər əllərində olanlardan maksimum yararlanmağa və problemləri mərhələli şəkildə aradan qaldırmağa çalışdılar. Böyük yayımçılar isə belə riskləri almağa meyilli deyillər. "Mojocon" mobil jurnalistika konfransının təsisçisi Qlen Malkahinin (Glen Mulcahy) dediyi kimi *"böyük yayımçılar öz infrastrukturlarını dəyişməkdə çox ehtiyatlı olurlar. İşlərin vəziyyətini pozan bir şey ortaya çıxdıqda, insanlar dayandırmaq və dəyişikliyin müsbət potensialını görməyə çalışmaq əvəzinə ondan tez qurtulmağa meyllidirlər".* (12)

**Vətəndaş jurnalistikasında mobil jurnalistika meyillərinin rolu**

Bu gün mobil cihazların geniş əlçatanlığı o deməkdir ki, mobil jurnalistikadan nəşriyyat üçün effektiv vasitə kimi istifadə edə bilən təkcə nüfuzlu naşirlər deyil. Vətəndaş jurnalistikası ictimaiyyət üzvləri tərəfindən sosial media və ya ictimai platformalar vasitəsilə məlumatların toplanması və xəbərləşdirilməsidir. Vətəndaş jurnalistikasının yüksəlişi texnologiyaların təkamülünün və sosial media platformalarında dərc üçün asan əlçatanlığının birbaşa nəticəsidir. Yəni, jurnalist olmayan sıravi vətəndaşlar cəmiyyətdə təkmilləşdirmək istədikləri məsələləri və ya həllinin labüd olduğu problemləri sosial media başda olmaqla, müxtəlif kanallarla yayımlamağa əhəmiyyət verir. Cari işlər vətəndaş jurnalistikasından və sadə vətəndaşların video paylaşımlarından bəhrələnir. Əllərindəki mobil telefonları ilə hadisə anında çəkdikləri görüntü peşəkar jurnalistlərin də yayımlaması sayəsində əks-səda doğurur, insanların sürətli şəkildə məlumatlanması, hətta mövcud problemə cəmiyyətin də reaksiya verməsinə gətirib çıxara bilir. Bu mənada, "Əl-Qaidə"nin qurucularından biri olan Üsamə bin Ladenin ölümü bağlı xəbəri vurğulamaq yerinə düşərdi. Bu hadisəni ilk olaraq media qurumu açıqlamamışdı. Hətta ABŞ-ın keçmiş prezidenti Barak Obamanın rəsmi açıqlamasından əvvəl bu xəbəri internet vasitəsilə insanlara çatdıran yerli vətəndaş idi (13).

Amma unutmaq olmaz ki, sosial medianın gücü ilə vətəndaş jurnalistikası ənənəvi nəşriyyatçılar üçün təhlükə potensialına da malikdir. Əsas səbəb budur ki, onların hazırladığı xəbərlər daha sürətlə yayılır. İstehsal olunan məzmun həm də qeyri-peşəkar ola bilər ki, bu da nüfuzlu naşirlərin reputasiyasına xələl gətirə bilər. Bununla belə, hər hansı bir sənaye dəyişikliyə məruz qaldıqda, yeni olanlar mənimsənilməzdən və normal hala gəlməzdən əvvəl belə çətin dövr keçir. ITN prodakşınlarının redaktorlar üzrə direktoru Kris Şau (Chris Shaw) sosial şəbəkələrin rolunu belə qiymətləndirirdi: *"Sosial şəbəkələr sənədli film çəkənlər üçün tamamilə yeni mənzərələr açır və naşirlər sosial şəbəkələrin məzmunundan istifadə edərək ən heyrətamiz filmlər çəkə bilərlər"* (14).

**Nəticə**

Mobil jurnalistikanın imkanları və effektiv istifadəsi fonunda ənənəvi jurnalistikanın sonunun çatdığı düşünülə bilər. Amma bu belə deyil. Ənənəvi jurnalistika hələ ölməyib. Onlar media innovasiyaları hesabına varlığını müxtəlif formalarda davam etdirir. Biz artıq mediaya fərqli şəkildə, tələb əsasında, telefonlarımızla daxil oluruq. Amma bu o demək deyil ki, bizim jurnalistlərə ehtiyacımız yoxdur. Əslində saxta xəbərlərin olduğu bu günlərdə ənənəvi jurnalistikaya hər zamankindən daha çox ehtiyacımız var. Bizə etibar edə biləcəyimiz mənbələrə, bizə lazımi məlumatları verə biləcək insanlara, başqalarının müdafiəsinə qalxmağa və həqiqətin arxasınca getməyə hazır olan müxbirlərə ehtiyacımız var. Mobil jurnalistika ənənəvi jurnalistikanı öldürmür, əslində ənənəvi jurnalistikanı təkmilləşdirir. Hər ikisi bir-birinin əməkdaşlığı ilə işləyir və kommunikasiya texnologiyasını inkişaf etdirməyi əhatə etdiyi üçün "Qabaqcıl Jurnalistika" adlandırıla bilər. Bu da o deməkdir ki, mojo mediaya öz məqsədinə daha səmərəli xidmət etməyə kömək edir.

**ƏDƏBİYYAT**

1. The rise of mobile journalism: Publishing's new frontier? (https://mediamakersmeet.com/the-rise-of-mobile-journalism-publishings-new-frontier/ )
2. MOBILE JOURNALISM: the emergence of a new field of journalism (https://www.scielo.br/j/bjr/a/HqWKq7vMhWZrCzDLgYmfdrk/ )
3. MOBILE JOURNALISM: the emergence of a new field of journalism (https://www.scielo.br/j/bjr/a/HqWKq7vMhWZrCzDLgYmfdrk/ )
4. The rise of mobile journalism: Publishing's new frontier? (https://mediamakersmeet.com/the-rise-of-mobile-journalism-publishings-new-frontier/ )
5. MOBILE JOURNALISM: the emergence of a new field of journalism (https://www.scielo.br/j/bjr/a/HqWKq7vMhWZrCzDLgYmfdrk/ )
6. The rise of mobile journalism: Publishing's new frontier? (https://mediamakersmeet.com/the-rise-of-mobile-journalism-publishings-new-frontier/ )
7. Mobile Journalism ( https://www.shoulderpod.com/mobile-journalism )
8. Mobile Journalism ( https://www.shoulderpod.com/mobile-journalism )
9. Как стать профессиональным мобильным журналистом? Советы, ссылки, инструкции

(https://newreporter.org/2018/01/16/kak-stat-professionalnym-mobilnym-zhurnalistom-sovety-ssylki-instrukcii/ )
10. Tackling wind and crowds on a small budget: Mobile journalism in the Falkland Islands (https://www.journalism.co.uk/news/tackling-wind-and-crowds-on-a-small-budget-mobile-journalism-in-the-falkland-islands/s2/a710754/ )
11. Tackling wind and crowds on a small budget: Mobile journalism in the Falkland Islands ( https://www.journalism.co.uk/news/tackling-wind-and-crowds-on-a-small-budget-mobile-journalism-in-the-falkland-islands/s2/a710754/ )
12. Как стать профессиональным мобильным журналистом? Советы, ссылки, инструкции (https://newreporter.org/2018/01/16/kak-stat-professionalnym-mobilnym-zhurnalistom-sovety-ssylki-instrukcii/ )
13. Yukti Seth, Dr. Kuldeep Singh (2018) – "The Impact of Mobile Journalism on the Traditional Media", page 1 (link: https://www.ijsr.net/archive/v8i12/ART20203642.pdf )
14. The rise of mobile journalism: Publishing's new frontier? (https://mediamakersmeet.com/the-rise-of-mobile-journalism-publishings-new-frontier/ )

***Naxçıvan Dövlət Universiteti***
***ORCHİD CODE – 0000-0003-2140-1607***

**Ramal Ibrahimov**

## THE INFLUENCE POSSIBILITIES OF THE TRADITIONAL MEDIA ACTIVITY TO THE MOBILE JOURNALISM

The rise of online media coverage in journalism has forced the media to adapt traditional news gathering and publishing methods to the digital age. The rapid evolution of technology and the resulting shift to online publishing has led to the rise of mobile journalism. The effectiveness and convenience of mobile journalism is noticeable in the preparation of all types of media products, from fairs to the preparation of materials with political content. That is, thanks to the functionality provided by mobile journalism, it both accelerates and facilitates the acquisition, processing and transmission of information in the mass media. In the article, the effectiveness of mobile journalism in media organizations with different types of resources, the level of work optimization is explained with practical examples. From the experience of Great Britain to the Falkland Islands and Kazakhstan, the possibilities of using mobile journalism are touched upon. It reveals that mobile journalism does not destroy traditional media, but rather adapts it to modern times. In a word, the media of our time should tend towards digitalization and focus on the principle of speed, which is the main factor in the information war. In order to ensure this in the activities of the mass media, taking advantage of mobile journalism opportunities is the most appropriate solution to the demand of the time.
**Keywords:** *Mobile journalism, media, efficiency, digitality*

**Рамал Ибрагимов**

## ВОЗМОЖНОСТИ ВЛИЯНИЯ ТРАДИЦИОННОЙ МЕДИА-ДЕЯТЕЛЬНОСТИ НА МОБИЛЬНУЮ ЖУРНАЛИСТИКУ

Рост освещения журналистики в онлайн-СМИ заставил средства массовой информации адаптировать традиционные методы сбора и публикации новостей к цифровой эпохе. Быстрое развитие технологий и, как следствие, переход к онлайн-публикациям привели к росту мобильной журналистики. Эффективность и удобство мобильной журналистики заметны при подготовке всех видов медиапродуктов: от ярмарок до подготовки материалов политического содержания. То есть благодаря функционалу, который предоставляет мобильная журналистика,

она не только ускоряет, но и облегчает получение, обработку и передачу информации в средствах массовой информации. В статье на практических примерах поясняется эффективность мобильной журналистики в медиаорганизациях с разными типами ресурсов, уровнем оптимизации работы. От опыта Великобритании до Фолклендских островов и Казахстана затрагиваются возможности использования мобильной журналистики. Оно показывает, что мобильная журналистика не разрушает традиционные СМИ, а скорее адаптирует их к современности. Словом, средства массовой информации нашего времени должны стремиться к цифровизации и ориентироваться на принцип скорости, который является главным фактором информационной войны. Чтобы обеспечить это в деятельности средств массовой информации, использование возможностей мобильной журналистики является наиболее соответствующим требованию времени решением.
**Ключевые слова:** *Мобильная журналистика, СМИ, эффективность, цифровизация.*

*AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 04.02.2024**
**Son daxilolma tarixi:06.03.2024**